# "I Dünya müharibəsi və Azərbaycan" beynəlxalq konfransının iştirakçıları "Azər-İlmə"də

Bu günlərdə AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun təşkilatçılığı ilə "I Dünya müharibəsi və Azərbaycan" mövzusunda keçirilən beynəlxalq elmi konfransın iştirakçıları "Azər-İlmə"nin qonağı olmuşlar.

Türkiyə, Rusiya, Gürcüstan, Fransa, Mərkəzi Asiya ölkələrindən və s. olan görkəmli tarixçi-alimləri "Azər-İlmə"nin tarixi haqqında məlumatlandıran professor Vidadi Muradov qonaqları həmçinin xalça sexi, "Xalçaçılıq Tədris Mərkəzi", "Sehrli ilmələr" qalereyası ilə də tanış etmişdir. Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Yaqub Mahmudov Azərbaycan tarixinin və mədəniyyətinin təbliğində, xalçaçılıq ənənələrinin uğurla davam etdirilməsində nəinki Azərbaycanda və Qafqazda, eyni zamanda dünya miqyasında öz dəst-xətti ilə seçilən "Azər-İlmə"nin elmi araşdırmalarından, burada nəşr olunan kitablardan, jurnallardan söz açmışdır.



Qonaqlar burada xalçanın ərsəyəgəlmə prosesini diqqətlə izləyib, daha sonra boyaqxana ilə tanış oldular. Onlar ənənəvi üsullarla toxunan Azərbaycan xalçasının gözəlliyinə, çeşni zənginliyinə heyranlıqlarını gizlətmədilər. "Azər-İlmə"nin Azərbaycan xalçalarını İrəvan, Naxçıvan, Təbriz, Qarabağ, Bakı, Şirvan, Quba, Gəncə, Qazax-Borçalı kimi xalça qrupları üzrə tədqiqata cəlb etməsindən bəhs edən professor V. Muradov bu təsnifatın tarixi-mədəni prinsipləri haqqında da danışdı. "Sehrli ilmələr" qalereyasında naxış-ornament sistemi, rəng-harmoniya, texniki fəqrlər barədə məlumatlandırılan qonaqlara hər qrupa aid xalça nümunələri nümayiş etdirildi.


Tədbir iştirakçıları

Tarixçi-alimlər öz təəssüratlarını "Azərbaycan xalçaları" jurnalı ilə bölüşdülər:



*Prof. Dr. Mehmet Ali Beyhan - Atatürk Araşdırmalar Mərkəzinin sədri (Türkiyə)*

"Fövqəladə sənət əsərləri ilə üz-üzəyəm. Bu sənət əsərləri insanların gözünün nuru, əməyi nəticəsində yaradılır. Xalçaların tarixi əhəmiyyəti böyükdür. Onlardan zövq aldım. Azərbaycan xalçaları ilə Türkiyə xalçaları arasında həm fərqli, həm də oxşar cəhətlər var. Bu da təbiidir. Çünki hər yerin öz dəyərləri, öz sənəti var. Bu vaxta qədər sizin məşhur xalçalarınız barədə kitablardan oxuyurdum. İndi isə onları öz gözlərimlə gördüm. Milli xalçaçılıq sənəti dünyaya açılan bir pəncərədir".



*Maryam Dolqiyeva - Ç.Axriyev adına İnquşetiya humanitar elmlər elmi-tədqiqat İnstitutunun İnquşetiya Tarixi Şöbəsinin müdiri, Tarix elmləri doktoru (İnquşetiya)*

"İlk dəfədir ki, Bakıdayam. Həm şəhəriniz, həm də xalqınızla bağlı çox gözəl təəssüratlarım var. Sizin xalça şirkətinizdə gördüklərim də məni heyran edib. Milli adət-ənənələrinizi qoruyub saxlamağınız təqdirəlayiqdir. Burada milli ornamentli xalçalar gördüm. Qalereyanızda xəritə-xalça asılıb. Daha bir xalçada isə Azərbaycanın tarixi ilə bağlı motivlər əks olunub. Siz xalçalar vasitəsilə öz ənənələrinizi qoruyursunuz, təbliğ edirsiniz. Hamınıza xoşbəxtlik arzulayıram. Ümid edirəm ki, bu səfərim Azərbaycan və İnquşetiya əlaqələrinin daha da möhkəmlənməsinə kömək edəcək".







*Quram Marxuliya - Beynəlxalq Qafqaz geotarixi və geosiyasi tədqiqatlar mərkəzinin prezidenti, tarix elmləri doktoru, Suxumi Dövlət Universitetinin professoru (Gürcüstan)*

"Azərbaycan mənim ikinci vətənimdir. Burada tez-tez oluram. Amma bu gün "Azər-İlmə" də gördüklərim məni heyrətə gətirdi. Bir daha yəqin etdim ki, Azərbaycan xalçaçılığın vətənidir və Azərbaycan xalçaçılığı dünyanın ən fundamental məktəblərindəndir. Bu, Azərbaycan xalqının, dövlətinin sərvətidir. Mən sizin dövlətə təşəkkür etmək istəyirəm ki, o Azərbaycan mədəniyyətini qoruyub saxlayır və bütün dünyaya nümayiş etdirir. Bu mədəniyyətlə, incəsənətlə qürur duymaq lazımdır. Belə bir zəngin mədəniyyəti dövlət səviyyəsində dəyərləndirmək, qorumaq zəruridir. Sizə təşəkkür etmək istəyirəm".



*Vladimir Buldakov - Rusiya Elmlər Akademiyası Tarix İnstitutunun elmi katibi, Tarix elmləri doktoru (Rusiya)*

"Bakıya ilk səfərimdir. Şəhərinizə heyran qalmışam. Burada qədim Şərq mədəniyyətini, eyni zamanda da, müasir tikililəri, yolları bir arada görmək mümkündür. "Azər-İlmə" məni yaxşı mənada heyrətləndirdi. Burada rəngarəng, şux, yüksək keyfiyyətli xalçalar gördüm. Hər xalçaya toxunmaq, əzizləmək keçdi ürəyimdən".











*Kamil Əliyev - "Yoldaş" qəzetinin redaktoru, Dağıstan Respublikasının Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru (Dağıstan)*

"Dəfələrlə Bakının qonağı olmuşam. Xalçaçılıq şirkətinizə isə ilk gəlişimdir. "Azər-İlmə" mənim üçün kəşf oldu. Bura Azərbaycanın qədim irsinin təbliğat yeridir. Həm xalça sexi, həm qalereya bir bütövlük, vəhdət yaradır. Xalçalarınızın YUNESKO-nun Qeyri-Maddi irs siyahısına daxil olması alqışlanmalı haldır".



*Hacı Murad Donoqo - tarix elmləri doktoru, Dağıstan Dövlət Universitetinin professoru (Dağıstan)*

"Bakını çox yaxşı tanıyıram. Burada hərbi xidmətdə olmuşam. Amma bu gün gördüyüm Bakı tamam dəyişilib. Binaları daha da gözəlləşib, yolları, mədəniyyəti inkişaf edib. Bakıya hər gəlişim məni təəccübləndirir və sevindirir. Xalçalarınıza gəlincə isə, dağıstanlıları xalça ilə təəccübləndirmək olmaz. Çünki Dağıstanda da bu sənət inkişaf edib. Amma burda gördüklərim - xalçaların təqdimatı, ekspozisiyası, müxtəlif xalça qruplarına aid nümunələr- fantastikdir. Bir məsələ də gözümdən yayınmadı. "Azər-İlmə"nin rəhbəri professor Muradov yaradıcılıq eşqi ilə yaşayan insandır. Hiss olunur ki, o, xalçalarla, öz işi ilə nəfəs alır. Liderdən, rəhbərdən çox şey asılıdır. Burada gördüklərimdən hər yerdə danışacağam. Sizin xalçalarınız bədii tərtibatına və texnologiyasına görə fərqlənir. Xalçaçılıq mənə yaxın olsa da, bu gün mən onu tamam başqa aləmdə gördüm. Bu da məni çox sevindirir. Xalçaçılığı yaşatmaq və gələcək nəsillərə çatdırmaq əhəmiyyətli işdir. Kollektivinizə bu yolda yaradıcılıq uğurları arzulayıram".

Tarixçi-alimlərdən ibarət nümayəndə heyəti "Azər-İlmə"dən xoş təəssüratlarla, rəngarəng kitab və jurnallarla ayrıldılar.